**UOT 327**

***Mahir İbrahimov,***
***tarix üzrə fəlsəfə doktoru,***
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu***
***Beynəlxalq münasibətlər tarixi şöbəsinin***
***aparıcı elmi işçisi***
***mahir.ibrahimov1969@gmail.com***

# XƏZƏRYANI MƏKAN GEOSİYASİ RƏQABƏT VƏ GEOİQTİSADİ MARAQLAR ZƏMİNİNDƏ

**Annotasiya**

XX əsrdə dünyanın sosial-siyasi inkişafından çıxarılan nəticələr göstərir ki, bu əsr mövcud ziddiyyətlərin kəskinləşdiyi və ictimai-siyasi təlatümlərin daha da yüksəldiyi bir dövr olmuşdur. Beynəlxalq münasibətlər sistemində baş vermiş ciddi dəyişikliklər, o cümlədən keçmiş SSRİ-nin süquta uğraması nəticəsində suveren dövlətlərin yaranması da XX əsrin 90-cı illərin əvvəllərində siyasi inkişafda baş vermiş ən mühüm hadisələrdəndir. SSRİ-nin süqutundan sonra postsovet məkanında siyasi-iqtisadi əlaqələr iflic vəziyyətinə düşmüşdür. Belə bir şəraitdə müstəqillik əldə etmiş dövlətlər iqtisadi əlaqələr qurmaq üçün müxtəlif qurum və təşkilatlar yaratmağa və ya mövcud qurum və təşkilatlarda birləşməyə meyl edir, iki və çoxtərəfli əməkdaşlıq üçün yollar axtarırdı. Müəllif problemin tərkib hissəsi kimi bu istiqamətdə elmi araşdırmalar aparmış, Xəzəryanı region ölkələrinin qarşılıqlı inteqrasiya proseslərində mövcud durumunu, dinamik inkişafını, dövlətlərin xarici siyasət xəttini müqayisəli şəkildə tətqiq etmişdir.

***Açar sözlər:*** *əməkdaşlıq, birlik, postsovet, siyasi-iqtisadi, qurum, inteqrasiya.*

## CASPIAN REGION IN GEOPOLITICAL COMPETITION AND GEOECONOMIC INTERESTS

**Annotation**

The results of the socio-political development of the world in the twentieth century show that this century was a time of exacerbation of existing tension and the growth of social and political upheavals. Serious changes in the system of international relations, including the emergence of sovereign states after the collapse of the former USSR, are one of the most important events in political development in the early 1990s. After the collapse of the USSR, political and economic relations in the post-Soviet space were paralyzed. Under these conditions, the new independent states tended to create various institutions and associations for economic relations or to unite with existing institutions and associations, and looked for ways to develop bilateral and multilateral cooperation. The author conducted research in this area as an integral part of the problem, compared the current state, the dynamic development in the integration processes of the Caspian countries and the foreign policy line in this direction.

***Keywords:*** *cooperation, unity, post-Soviet, political, economic, institutional, integration.*

***Giriş***

Dünya təcrübəsindən məlum olduğu kimi, bəzi hallarda siyasət iqtisadiyyata elə güclu təsir edir ki, o, birbaşa siyasətdən asılı vəziyyətə düşür. Bəzən isə iqtisadi durum birbaşa daxili və xarici siyasət kursunu müəyyənləşdirir. Deməli, məqamından, mövcud vəziyyətdən asılı olaraq siyasət və iqtisadiyyat müxtəlif təsir gücünə malik olurlar. Belə hesab edirik ki, siyasətlə iqtisadiyyatı bu nöqteyi-nəzərdən müqayisə edərək araşdırılan problemin təhlilini vermək daha məqsədəuyğun olardı.

Keçmiş müttəfiq respublikaların müstəqillik əldə etməsi prosesi ilk baxışda asan görünsə də, həlli çox ağır olan iqtisadi problemlər yaratmışdı. Vaxtilə Sovet hakimiyyəti illərində yaradılmış ümumittifaq xalq təsərrüfatı kompleksi artıq iflic vəziyyətə düşmüşdü. Siyasi münasibətlərin qırılması iqtisadi əlaqələrin pozulmasına və keçmiş postsovet məkanında ağır iqtisadi böhranın yaranmasına səbəb olmuşdu. Belə bir şəraitdə müstəqillik əldə etmiş ölkələr iqtisadi əlaqələri bərpa etmək üçün müxtəlif qurum və birliklər yaratmağa və ya mövcud qurum və birliklərdə birləşməyə meyl edir, iki və çoxtərəfli iqtisadi əməkdaşlıq üçün yollar axtarırdı. Son illərdə bu inteqrasiya ritorikası xeyli genişlənmiş, bəzi müstəqil dövlətlərin inkişaf templərindəki göstəricilər nəzərə çarpacaq dərəcədə yüksəlmişdir.

***Müstəqillik əldə etmiş ölkələrin inteqrasiyası üçün iqtisadi şərtlər varmı, hansı amil və proseslər bu inteqrasiyanın real hərəkətvericisidir?***

Bu suallara aşağıda cavab tapmağa çalışmışıq. MDB məkanı, xüsusilə də Xəzər regionunun geniş əraziyə, əlverişli strateji yerləşməsinə, zəngin təbii ehtiyatlara malik ölkələri müstəqillik əldə etdikdən sonra beynəlxalq ictimaiyyəti özünə cəlb etmiş, iqtisadi fəaliyyət göstərmək üçün münasib məkana çevrilmişlər [4, s. 171]. Region ölkələri investorlar üçün hər hansı vəziyyətdən asılı olmayaraq zəmanətli mühüt yaratmış, qanunlar qəbul etmişlər. Artıq bütün bunlar 15 yanvar 1992-ci ildə Azərbaycan, 19 may 1992-ci ildə Türkmənistan, 27 dekabr 1994-cü ildə Qazaxıstan, 9 iyul 1999-cu ildə isə 7 il müddətinə Rusiya qanunvericiliyində öz təsdiqini tapmışdır [5, s. 92-94]. Hal-hazırda Xəzəryanı məkanda yerləşən ölkələr müxtəlif siyasi-iqtisadi qurumlarda fəaliyyət göstərirlər ki, bunlara Müstəqil Dövlətlər Birliyi (MDB), Avrasiya İqtisadi Təşkilatı (AİT), Birlik İqtisadi Məkan Təşkilatı (BİT), Rusiya-Belarus İttifaqı, Şanxay İqtisadi Təşkilatı (ŞİT), GUAM, Demokratik Seçim Həmrəyliyi (DSH), İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) və Ümumdünya Ticarət Təşkilatı(ÜTT) kimi beynəlxalq təşkilatlar daxildir. Aşağıdakı cədvəldə regional, ikitərəfli və qlobal iqtisadi təşkilatların postsovet məkanında yeri təsvir edilib.

***Cədvəl 1.***
***SSRİ-nin süqutundan sonra yaranan regional iqtisadi birliklər [7, s.195].***

| | MDB (1991) | AİT 2000 | İBT 2003 | Belorusiya-Rusiya ittifaqı 1999 | ŞƏT 2001 | GUAM 1997 | İƏT 1992 | DST 2005 | ÜTT |
|---|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | ++ | | | | | ++ | ++ | ++ | |
| Ermənistan | ++ | +(2014) | | | | | | | +(2003) |
| Belarus | ++ | + | ++ | + | | | + | | |
| Gürcüstan | | | | | | ++ | | ++ | +(2000) |
| Qazaxıstan | ++ | + | ++ | | | | ++ | | +(1998) |
| Qırğızıstan | ++ | + | | | | | ++ | | + |
| Moldova | ++ | Müşahidəçi | | | | ++ | | ++ | +(2001) |
| Rusiya | ++ | + | ++ | + | + | | | | + |
| Tacikistan | ++ | + | | | | | ++ | | |
| Türkmənistan | ++ | | | | | | ++ | | |
| Özbəkistan | ++ | + | | | ++ | | ++ | | |
| Ukrayna | ++ | Müşahidəçi | ++ | | | ++ | | ++ | |
| Çin | | | | | ++ | | | | +(2001) |
| Türkiyə | | | | | | | ++ | | +(1995) |
| İran | | | | | | | + | | |
| Pakistan | | | | | | | ++ | | +(1995) |
| Əfqanıstan | | | | | | | ++ | | |

Belə vəziyyət əlbəttə paradoksal görünməlidir. Yüksək milli iqtisadiyyata malik ölkələrlə məhdud ixrac həcmi olan ölkələr oxşar birlik və təşkilatlara daxil olur, eyni zamanda tez-tez kəsişən və toqquşan maraqlarla üzləşirlər. Əvvəlcə biz rəsmi mövcud olan iqtisadi qurumların xüsusiyyətlərinə nəzər salaq.

SSRİ-nin süqutundan sonra ilk yaradılan təşkilatlardan birncisi MDB-dir. Məlum olduğu kimi, 1991-ci ilin dekabrın 8-də Belarusda imzalanmış Belovejskaya Puşşa sazişi əsasında Rusiya, Ukrayna və Belarus prezidentləri MDB-nin yaradılması haqqında razılığa gəldilər [2]. Artıq dekabrın 21-də 11 respublika Alma-Ata Bəyannaməsilə bu təşkilatın rəsmi yarandığını elan etdi. Məhz bu təşkilat qismən də olsa keçmiş ittifaq ölkələrinin sivil qaydada müstəqillik qazanmasında, iki və çoxtərəfli əlaqələrin inkişafında müəyyən tarixi rol oynamışdır. Lakin burada hərbi münaqişə şəraitində olan regionlar istisnalıq təşkil edir. Məlumdur ki, 1990-cı illərin əvvəllərindən başlayaraq ittifaq ölkələri arasındakı iqtisadi əlaqələr demək olar ki, ətalətli duruma gəlmişdir. Yeni yaradılan qurum isə müstəqil ölkələr arasında səmərəli iqtisadi mexanizm yaratmaq iqtidarında deyildir. Ona görə də sönrakı dövrlərdə MDB-dən asılı olmadan keçmiş sovet respublikaları iki və çoxtərəfli ticari-iqtisadi müqavilələr bağlamış, bu isə postsovet məkanında tədricən azad ticarət zonasının formalaşmasına gətirib çıxarmışdı.

Digər bir təşkilat – Avrasiya İqtisadi Təşkilatı (AİT) isə MDB daxilində Gömrük İttifaqı müqaviləsi bağlandıqdan sonra meydana çıxmışdı. Beləliklə, 2000-ci ilin oktyabrında Rusiya, Qazaxıstan, Belarus, Qırğızıstan və Tacikistan respublikaları Avrasiya İqtisadi Təşkilatının yaradılması haqqında müqavilə imzaladılar [3, s.109-117]. 2002-ci ilin mayından Moldovada və Ukrayna bu təşkilatda müşahidəçi statusunda iştirak edirlər. Artıq 2005-ci ilin sonunda "Mərkəzi Asiya Əməkdaşlıq Təşkilatı" (MAƏT) AİT-lə birləşmiş, Özbəkistan respublikası isə 2006-cı ilin yanvar ayında quruma üzv qəbul edilmişdir. Burada haşıyə çıxaraq qeyd etmək istəyirəm ki, "Avrasiya İttifaqı" nəzəriyyəsi hələ keçən əsrin 20-ci illərində rus mühacirləri tərəfindən irəli sürülmüşdür. 80-ci illərin sonlarında isə rus siyasətşünası A.Q.Duqin fəlsəfənin ənənəçilik, geosiyasət, metafizika kimi elementlərinə yeni ideya və metodlar əlavə edərək bu nəzəriyyəyə tətbiq etmişdir [13]. Hesab edirik ki, Rusiyanın belə bir təşkilatın yaradılmasına təşəbbüs göstərməsi də həmin nəzəriyyədən qaynaqlanır.

AİT-ın tərkibində xüsusi icra orqanları – Dövlətlərarası Komitə, Parlamentlərarası Assambleya və İnteqrasiya Komitəsi yaradılmışdır. AİT-nin fəaliyyəti əsasən iştirakçı ölkələrin iqtisadi potensialından asılı olaraq maliyyələşdirilir. Özbəkistan təşkilata qəbul edildikdən sonra Rusiyanın kvotası 40%, Belarus, Qazaxıstan və Özbəkistanın 15%, Qırğızıstan və Tacikistanın isə hər birinin payı 7,5% təşkil edir. Müvafiq olaraq səsvermə zamanı qəbul edilmiş bu və ya digər qərarlar ölkələrin kvotasına uyğun surətdə həyata keçirilir [1].

2006-cı ilin yanvar ayında Qazaxıstan və Rusiya AİT çərçivəsində Avrasiya İnkişaf Bankını təsis etmişdir ki, onun da nizamnamə kapitalı 1,5 milyard dollar təşkil edir. Bunun əsas məqsədi iştirakçı ölkələrin investisiya layihələrini maliyyələşdirməkdən ibarətdir. Bankın nizamnamə kapitalında Qazaxıstan və Rusiyanın payı 1:2 nisbətindədir. Bu bank kapitalının əsas hissəsinin energetika və nəqliyyat sferasına qoyulması nəzərdə tutulmuşdur.

Məlum olduğu kimi hələ yarandığı gündən AİT-in əsas məqsədi Gömrük İttifaqı yaratmaq idi. Ona görə də 2000-cı ildə iştirakçı ölkələr vahid gömrük tarifi tətbiq etmək üçün razılığa gəlmişlər ki, bu da yaxın beş il ərzində Gömrük İttifaqının bağlanmasına zəmin yaratmışdır. Buna görə də Qırğızıstan və Tacikistanın vahid gömrük tarifinə qoşulması üçün xüsusi layihə nəzərdən keçirilmiş, 2006-cı ilin əvvəlindən isə iştirakçı ölkələr demək olar ki, öz aralarında vahid gömrük rüsumlarının qoyulması üçün mövqelərin yarıdan çoxunu razılaşdırıblar. Onların gömrük qanunvericiliyi də demək olar ki, uzlaşdırılmışdır. Hal-hazırda isə yaxın gələcəkdə vahid nəqliyyat və vahid valyuta məkanının yaradılması üzərində danışıqlar gedir. İlk baxışda elə görünür ki, AİT üzvləri tarif siyasətinin həyata keçirilməsi istiqamətində xeyli irəliyə getmişlər. Lakin xatırlatmaq lazımdır ki, hələ 1995-ci ildə Gömrük İttifaqının üzvləri öz aralarında idxal tariflərini tam razılaşdırmış və bunu rəsmən elan etmişlər. Lakin aydın olmayan bir məsələ də var, indiyədək məlum deyildir ki, AİT-nın üzvləri Qırğızıstan problemini hansı yolla həll edəcəklər. Məlumdur ki, bu ölkə çoxdan Dünya Ticarət Təşkilatına daxil olmuş və bəzi istisna hallarını çıxmaq şərti ilə praktik olaraq mal dövriyyəsinin böyük əksəriyyətində idxala qoyulmuş əlavə rüsumları dondurmuşdur. Ancaq qeyd etmək lazımdır ki,

bu dövr də artıq başa çatmaq üzrədir. Qırğızıstana ÜTT-dən çıxması üçün təzyiq etmək və ya üzv olduğu təşkilatda ona qarşı müəyyən şərtlər irəli sürmək qeyri-mümkündür. Qurumda onun xüsusi üzvlüyünü qəbul etmək isə Avrasiya məkanına vergidən azad bütün dünya mallarının idxalına şərait yaratmaq demək olardı. Beləliklə də postsovet məkanının iqtisadi inkişafı biznes təşkilatlarının virtual və kriminal formaları vasitəsilə AİT-nin bazarlarında ixracatın xüsusi çəkisini artıracaq ki, bu da Qırğızıstanın hesabına baş verə bilər. Sonda, daxili proseslərin dramatik xarakterini nəzərə alsaq, ola bilsin ki, bu proses hadisələrin sonrakı inkişafına əks təsir etməsin, lakin bunlar özü heç də AİT-ni yaradanların marağında deyil. Ədalət naminə demək lazımdır ki, Qırğızıstanın postsovet iqtisadi məkanına inteqrasiyası heç də Çin əmtəəsinin təzyiqi ilə deyil, əsasən təbii yolla baş vermişdir.

Diqqəti çəkən bir məqam da var ki, 2003-cü ilin sentyabrında yaradılmış Vahid İqtisadi Əməkdaşlıq Təşkilatının (VİƏT) da əsas məqsədlərindən biri Gömrük İttifaqının yaradılması idi. Bəzi tədqiqatçıların rəyinə görə VİƏT-nın təsis edilməsi Ukrayna ilə danışıqları stimullaşdırmaq üçün təşkil edilmişdir ki, sonradan onu AİT-ə cəlb etmək mümkün olsun, halbuki, bu dövlət heç də öz milli maraqlarının və ya suveren hüquqlarının hər hansı bir hissəsini qurban vermək niyyətində deyil. Buna baxmayaraq Ukrayna VİƏT çərçivəsində azad ticarət zonasının yaradılmasının tərəfdarı olduğunu bildirmişdir. AİƏ və VİƏT-in fəaliyyətindəki paralelliyə diqqət yetirsək aydın olar ki, əgər Gömrük müqaviləsi bağlanarsa onda hər iki təşkilat digər yeni bir qurumda birləşməli olacaqlar. Postsovet məkanında MDB, AİƏT və VİƏT qurumlarından başqa 1999-cu ildə yaradılmış Belorusiya və Rusiya İttifaqı da fəaliyyət göstərir [1].

15 iyun 2001-ci ildə isə Şanxayda (ÇXR) keçirilmiş Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Tacikistan və Özbəkistan liderlərinin sammitində Şanxay Əməkdaşlıq Təşkilatı yaradılmışdır. Təşkilatın Sankt-Peterburqda keçirilən ikinci sammitində (iyun, 2002-ci il) ŞƏT tərkibində daimi fəaliyyət göstərən regional antiterror qurumunun yaradılması haqqında razılıq müqaviləsi imzalanmışdır ki, burada da məqsəd tərəflərin hüquq və xüsusi xidmər orqanlarının terrorizmlə mübarizədə qarşılıqlı əməkdaşlığını əlaqələndirməkdən ibarətdir. Nizamnaməyə əsasən ŞƏT yeni üzvlərin qəbulu məsləsinə baxır, həmçinin maraqlı dövlətlərin və beynəlxalq təşkilatların dialoq üzrə tərəf müqabil və ya müşahidəçi kimi iştirakını təşkil edir.

ŞƏT-də əsas aparıcı dövlət ÇXR-dır və bu dövlət qurumun "lokomotiv"i hesab edilir. Çinin ŞƏT-dakı əsas məqsədi özünün Mərkəzi Asiya ölkələri ilə iqtisadi əməkdaşlığında – xüsusən Xəzər regionunda meydana çıxan məsələləri həll etməkdən ibarətdir ki, o, buna da nail olur. Əvvələ, onu da qeyd etmək lazımdır ki, Çin dövləti özünün mövcudluğunun uzun tarixi dövrü ərzində xarici siyasətdə həmişə ikitərəfli əməkdaşlığa və müqavilələrə üstünlük vermişdir. Ümumiyyətlə, çoxtərəfli əməkdaşlıq həmin dövlətin diplomatik və siyasi ruhuna, ənənələrinə həmişə zidd olmuşdur. Heç də təsadüfi deyi ki, ÇXR paralel olaraq ŞƏT-nın bütün üzvləri ilə qarşılıqlı əməkdaşlıq üçün ikitərəfli müqavilələr bağlamışdır.

Xüsusi qrup kimi təqdim edilən qurumlardan biri GUAM-dır (qısa dövrdə Özbəkistan da daxil olduğu üçün GUÖAM adlanırdı). Bu birlik ABŞ və Qərbi Avropa döv-

lətlərinin dəstəyi ilə formalaşmışdır. Quruma Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova dövlətləri daxildir [12]. 2005-ci ilin sonunda isə Gürcüstan və Ukraynanın təşəbbüsü ilə Baltik-Qara dəniz və Xəzər regionunda Demokratik Seçim Cəmiyyətini (və yaxud birliyi) yaratmaq təklifi irəli sürüldü. DSC-in ilk forumu 2005-ci ilin avqust ayında Azərbaycan, Gürcüstan, Ukrayna, Moldaviya, Litva, Latviya, Estoniya, Polşa, Makedoniya, Slovakiya, ABŞ, Avropa İttifaqı və ATƏT-in iştirakı ilə fəaliyyətə başlamışdı [9, s.159]. Məsələ burasındadır ki, GUAM və DSC öz-özlüyündə o qədər də ciddi iqtisadi qurum statusu daşımasa da burada iki cütlüyü qeyd etmək lazımdır. Belə ki, Gürcüstanla Azərbaycanın bir tərəfdən, Ukrayna və Moldovanın digər tərəfdən kifayət qədər fəal ticarət əlaqələri var ki, bu da onların coğrafi yaxınlığından irəli gəlir. Ümumiyyətlə, istər QUAM və DSC, istərsə də maraqlı tərəf olan ABŞ cəhd edirlər ki, Xəzər regionunun karbohidrogen xammalının Azərbaycan, Gürcüstan və Türkiyədən keçməklə nəqlini təmin etsinlər və özləri üçün strateji koridor yaratsınlar.

1992-ci ildə beş Asiya dövləti və Azərbaycan digər Türkiyə, İran, Pakistan və Əfqanıstan kimi ölkələrin də daxil olduqları İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü oldular. Bu təşkilat MAİƏT və MAƏ kimi qurumlarla müqayisədə "ritorik klub" kimi üstünlüyə malikdir. Lakin sonrakı dövrlərdə üzvlər arasında ticarətin stimullaşdırılması üçün elə də ciddi addımlar atılmamışdır. O da həqiqətdir ki, 1990-cı illərdə postsovet ölkələri, xüsusilə türkdilli dövlətlər Türkiyənin iqtisadi köməyinə çox böyük ümid bəsləyirdilər. Həmin vaxtlar Türkiyə tərəfi heç də sözügedən istiqamətdə fəallıq nümayiş etdirmirdi. Onu da xatırlatmaq lazımdır ki, postsovet məkanında əvvəllər digər regional iqtisadi qurumlarda mövcud olmuşdur və hal-hazırda onlar fəaliyyət göstərmir.

Belə ki, 1994-cü ildə Qazaxıstan, Qırğızıstan və Özbəkistan "Mərkəzi Asiya İqtisadi Əməkdaşlığ Təşkilatını" yaratmışdılar. 1998-ci ildə Tacikistan, 2002-ci ildə Rusiya həmin təşkilata qoşulmuşdular. Lakin hadisələrin sonrakı inkişafında MAİƏT bir qurum kimi MAƏ-yə transfer olundu. Sonradan prezidentlər, baş nazir və xarici işlər naziri səviyyəsində dövlətlərararsı məsləhət şurası, həmçinin Mərkəzi Asiya Əməkdaşlıq və İnkişaf Bankı təsis edildi. Lakin nə "MAİƏ", nə də "MAƏ" qurumlarının fəaliyyətlərində müsbət praktiki nəticə əldə edilmədi və yuxarıda qeyd edildiyi kimi sonradan hər iki təşkilat buraxılaraq Avrasiya İqtisadi Əməkdaşlıq təşkilatında birləşdilər.

Rəsmi səviyyələrdə tez-tez təsdiq edirlər ki, belə təşkilatların çoxluğu mövcud regionun rəngarəngliyinin göstəricisidir. Region ölkələrinin hər birinin xüsusiyyətlərindən, həmçinin hazırlıq səviyyəsindən asılı olaraq iqtisadi inteqrasiya prosesləri müxtəlif səviyyədə və muxtəlif surətlə inkişaf edir. Əslində isə postsovet məkanındakı bu inteqrasiya qruplarının inkişaf səviyyəsi çox aşağıdır. Umumiyyətlə, Xəzəryanı məkanda iqtisadi inteqrasiyanın belə vəziyyəti sanki Yaxın və Orta Şərqin, həmçinin Afrikanın inkişaf etməkdə olan ölkələrinin inteqrasiya cəhdlərini xatırladır və demək olar ki, on illərdir belə qarşılıqlı münasibətləri stimullaşdıran mövcud çoxsaylı qurumların inkişaf səviyyəsinin nəticələri sıfır səviyyəsindədir. Bəzi ekspertlər isə postsovet məkanındakı regional iqtisadi əməkdaşlıq təşkilatlarının davamlı fəaliyyətinə şübhə ilə yanaşır, hətta onların gələcəyinin olmadığı qənaətindədirlər [6, s. 78-84].

***Onda belə bir sual ortaya çıxır ki, bəs nə üçün Xəzəryanı ölkələr müxtəlif ittifaqlar və inteqrasiya qurumları yaratmaqda maraqlıdırlar?***

Bunun izahı üçün bir reallığı da qeyd etmək lazımdır ki, postsovet məkanında mövcud iqtisadi əməkdaşlıq prosesləri rəsmi qurumların fəaliyyətindən asılı olmayaraq inkişaf edir və bunlara dövlətin diplomatik, həmçinin təşkilatçılıq münasibətlərinin nəticəsi prizmasından yanaşmalı olsaydıq bəlkə də səhv edərdik. Əvvəla, biz yaxından baxdıqda görürük ki, Xəzəryanı məkanda ölkələrin bazar iqtisadiyyatı yolu ilə inkişaf etmələri çox mürəkkəb şərait daxilində gedir.

Məsələn, Xəzəryanı məkanda yerləşən və ya dolayısı ilə əlaqəsi olan ölkələrin Qərbi Avropa və Yaponiyanın inkişaf etmiş iqtisadi mərkəzləri ilə ümumi sərhəd göstəricilərinə nəzər salaq.

***Cədvəl 2.***

***Postsovet ölkələrinin dünyanın iqtisadi mərkəzləri ilə ümumi sərhəd göstəriciləri*** *[11].*

| | **Həcmi** | **Qərbi Avropa ilə həm-sərhədliyi** | **Ölkənin böyük şəhərlərinin Qərbi Avropanın əsas mərkəzləri ilə məsafəsi km-lə** | **Ölkənin dənizdən 100............km. aralı yaşayan əhalisinin %-lə payı.** | **Ölkənin dənizdən 500............m hündürlükdə yaşayan əhalisinin %-lə payı** |
|---|---|---|---|---|---|
| Ukrayna | 3 | 0 | 1200 | 24 | 4 |
| Belarus | 3 | 0 | 950 | 0 | 0 |
| Türkmənistan | 2 | 0 | 3800 | 0 | 11 |
| Rusiya | 2 | 0 | 1650 | 11 | 11 |
| Moldova | 2 | 0 | 1260 | 12 | 0 |
| Qazaxıstan | 1 | 0 | 4800 | 0 | 31 |
| Gürcüstan | 0 | 0 | 2600 | 26 | 88 |
| Azərbaycan | 0 | 0 | 3090 | 0 | 53 |
| Özbəkistan | 0 | 0 | 4300 | 0 | 44 |
| Tacikistan | 0 | 0 | 4450 | 0 | 88 |
| Ermənistan | 0 | 0 | 2895 | 0 | 100 |
| Qırğızıstan | 0 | 0 | 4570 | 0 | 100 |

Göstəricilərə nəzər saldıqda biz region ölkələrinin sözügedən mərkəzlərlə qarşılıqlı münasibətlərinin inkişaf tempini çox aşağı, yaxşı halda isə orta səviyyədə görürük.

Əvvəla, cədvəldən göründüyü kimi, Xəzəryanı ölkələr ilə iqtisadi cəhətdən inkişaf etmiş ölkələr arasındakı məsafə (o cümlədən bəzi region ölkələrinin öz aralarındakı məsafə) min kilometrlərlə ölçülür ki, bu da xarici ticarət əlaqələrində nəqliyyat xərclərinin atrmasına səbəb olur.

İkincisi, Azərbaycan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan elə ölkələr hesab edilir ki, onların açıq dənizlərə birbaşa çıxışları yox-

dur, deməli, qlobal ticarət yollarına da malik deyillər. Bu isə xarici ticarət əlaqələrində əlavə xərclərin artması deməkdir.

Üçüncüsü, region dövlətlərinin bir çoxu mürəkkəb ərazi quruluşuna (ərazinin çox hissəsi dağlar, səhra və yarımsəhradır) görə fərqlənirlər ki, bu da artıq iqtisadi xərclərə səbəb olur. Buna görə də təəccüblü deyil ki, cədvəldə göstərilən coğrafi şərtlər region ölkələrinin iqtisadi inkişaf tempinə, o da öz növbəsində dövlətlərarası inteqrasiyaya mane olan səbəb kimi ortaya çıxır.

Bu ölkələrin iqtisadi xüsusiyyətlərinə nəzər salası olsaq görərik ki, Qərbi Avropa və Uzaq Asiya ölkələrinə nisbətən onlar ümumdaxili məhsulun düşən həcminə görə də aşağı və orta səviyyədədir.

***Dərhal belə bir sual ortaya çıxır ki, Xəzəryanı region ölkələrinin iqtisadiyyatı üçün qarşılıqlı ticarət nə qədər vacibdir?***

Regional ticarətin ümumi qəbul edilmiş əsas göstəricisi orada təmsil olunan ölkələrin müştərək ixrac məhsullarındakı payı hesab edilir. Aşağıdakı cədvəldə bu göstəricilərin, yəni regional daxili ticarətin 1996-2004-cü illər üçün faizlə inkişaf dinamikası təsvir edilmişdir.

***Cədvəl 3.***

***Regional daxili ticarətin 1996-2004-cü illər üçün müqayisəli inkişaf dinamiksı [10].***

| | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|---|---|---|---|
| | İxrac | | | | | | | | |
| Qafqaz-3 | 12,8 | 15,0 | 4,1 | 8,4 | 5,3 | 4,65 | 4,6 | 4,7 | 6,0 |
| MA-5 | ... | ... | 8,6 | 8,2 | 6,6 | 7,1 | 5,4 | 5,0 | ... |
| GUAM-4 | 4,5 | 4,3 | 3,3 | 2,7 | 2,4 | 2,5 | 3,1 | 3,6 | 3,5 |
| MDB-12 | 32,2 | 31,5 | 26,3 | 21,0 | 20,0 | 21,1 | 19,7 | 20,2 | 20,6 |
| İdxal | | | | | | | | | |
| Qafqaz-3 | 6,9 | 8,1 | 5,0 | 3,7 | 3,6 | 3,6 | 4,3 | 2,9 | 3,7 |
| MA-5 | ... | … | 10,1 | 9,9 | ... | 6,6 | ... | 7,6 | ... |
| GUAM-4 | 2,0 | 3,2 | 2,7 | 1,9 | 1,9 | 2,2 | 2,5 | 2,6 | 2,8 |
| MDB-12 | 35,8 | | | | | | | | |

***Cədvəl 4.***

***İxrac üçün müqayisə [10].***

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| ASEAN | 25,4 | | | 21,9 | 22,4 | 23,9 | 23,2 | 23,7 | 23,0 |
| MERKOSUR | 20,3 | | | 25,0 | 20,6 | 20,0 | 17,1 | 11,5 | 11,9 |
| FKÖƏŞ | 6,8 | | | 8,0 | 6,7 | 4,9 | 5,3 | 5,8 | 4,9 |
| NAFTA | 46,2 | | | 51,7 | 54,6 | 55,7 | 55,5 | 56,7 | 56,1 |
| Qafqaz-3 | Azərbaycan, Gürcüstan, Ermənistan | | | | | | | | |
| MA | Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan | | | | | | | | |
| GUAM | Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova | | | | | | | | |

| | |
|---|---|
| MDB | Müstəqil Dövlətlər Birliyinin 12 iştirakçı ölkəsi |
| ASEAN | Cənub-Şərqi Asiya dövlətlərinin Assosiasiyası |
| MERKOSUR | Cənub konusu dövlətlərinin ümumi bazarı: Argentina, Braziliya, Paraqvay, Uruqvay; |
| FKÖƏŞ | Fars körfəzi ölkələrinin əməkdaşlıq şurası: Bəhreyn, Qətər, Küveyt, BƏƏ, Oman, Səudiyyə Ərəbistan |
| NAFTA | Şimali Amerika azad ticarət zonası: Kanada, Meksika, ABŞ. |

Qeyd etmək lazımdır ki, qarşılıqlı ticarət Qafqaz-3 qrupuna daxil olan ölkələr arasında istənilən səviyyədə deyil. 2004-cü ildə regional ixracatda Qafqaz üçlüyünün müştərək payı 6% təşkil etmişdir. Regional idxal əməliyyatlarında da üçlük çox az rol oynayır. Bir çox baxımdan oxşar vəziyyət hələ sovet dövründən miras qalmışdır. SSRİ-nin dağılması ərəfəsində Qafqaz üçlüyü qrupunun regiondakı ixracatda payı cəmi 4,5%, idxalda isə 3,3% olmuşdur. Təəccüblü deyil ki, üç Qafqaz ölkəsinin belə iqtisadi durumu həmin sahədə əməkdaşlığı artırmaq üçün vasitə və imkanlardan istifadənin zəif olmasından irəli gəlir.

Təəssüflər olsun ki, mövcud mürəkkəb geosiyasət və regional siyasi proseslər iştirakçı ölkələrin qarşılıqlı münasibətlərinin bariz şəkildə effektiv aparılmasının qarşısına keçilməz sədd çəkmişdir ki, bu da öz növbəsində Qafqazda əlavə olaraq iqtisadi əməkdaşlığı daha da çətinləşdirmişdi. Qafqazda ticari-iqtisadi əlaqələrin genişlənməsi və dərinləşməsinə əsas siyasi maneələri aşağıdakı kimi dəyərləndirə bilərik:

1) Azərbaycan və Ermənistan, həmçinin Gürcüstan və Rusiya arasındakı hərbi münaqişələr.

2) Xəzər regionu enerji danışıqlarının ixrac marşrutlarını müəyyənləşdirmək uğrunda xarici güc mərkəzlərinin mübarizəsi;

3) Ermənistan-Türkiyə münasibətlərində "soyqırım problemi";

4) Amerikanın İranı təcrid etmək siyasəti.

Mərkəzi Asiya-5: Mərkəzi Asiyanın sözügedən beş ölkəsi də intensiv əməkdaşlıq üçün obyektiv və əvvəlcədən qoyulan ilkin şərtlərə malik deyildir. Proseslərin gedişi göstərir ki, Qazaxıstan və Türkmənistanın neft və qaz, Tacikistanın isə aliminium və pambıq-xammal istehsalını genişləndirməsi nəticəsində regional ixrac əməliyyatlarının xüsusi çəkisi müştərək mal göndərən bu beşlik ölkələri arasında azalmağa doğru gedəcək. Coğrafi amillərə görə Qırğızıstan regional əməkdaşlıqda digərlərinə nisbətən daha çox maraqlıdır, yəqin ona görə ki, onun malları Rusiya bazarlarına digər qonşu ölkələrin ərazisindən keçərək daxil olur. Buna baxmayaraq son vaxtlar sözügedən respublikaların və o cümlədən Rusiyanın bazarlarına Qırğızıstan məhsulları adı ilə faktiki olaraq Çin malları daxil olur.

GUAM: Kənardan nəzər saldıqda bu dördlüyün qarşılıqlı ticarət əlaqələri heç də real görünmür. Lakin, son vaxtlar geosiyasi məkanda baş verən mürəkkəb proseslər bu ölkələri daha sıx şəkildə əməkdaşlıq etməyə sövq etmişdir ki, bu da yüksələn xəttlə inkişaf etməkdədir. Bu əməkdaşlıqda əsas məsələ enerji təhlükəsizliyi məsələsidir.

MDB-12: 1990-cı illərdən başlayaraq iqtisadi əlaqələrin azalmasına baxmayaraq son dövrlər postsovet dövlətləri arasında ticarət əlaqələri demək olar ki, sabitləşmişdi. Regional ixracın xüsusi çəkisi 20-21%-ə çatmışdır ki, bu da təqribən ACEAN qrupunun göstəricilərinə yaxındır. Bu, o deməkdir ki, MDB iqtisadi cəhətdən yaşamağa qabil ticarət blokudur. Məsələ ondadır ki, MDB həddən artıq müxtəlif miqyaslı iqtisadiyyatları birləşdirir, ona görə də iştirakçı ölkələrin qarşılıqlı ticarət əlaqələrinin geniş müzakirəsi üçün daha ətraflı hazırlanmış yanaşma lazımdır. Belə blokların formalaşması siyasi, iqtisadi, tarixi xarakterli, obyektiv əsaslı proseslərin əmələ gəlməsinə gətirib çıxarır ki, bunların da fəallaşması bir tərəfdən beynəlxalq ticarətin inkişafına səbəb olursa da (zonalar, bloklar, regionlar çərçivəsində), digər tərəfdən ona maneçilik törədir.

XX əsrin sonu-XXI əsrin əvvəllərindən beynəlxalq iqtisadi münasibətlərin inkişaf praktikası sübut edir ki, son dövrlər özünütəminetmə regionalizmi əvəzinə açıq regionalizm meydana gəlmişdir. Bu təşkilatlar subregional iqtisadi ittifaqları (ASEAN, NAFTA və s.) birləşdirir, xarici ticarətin liberallaşma dərəcəsinə müvafiq olaraq müxtəlif səviyyələrdə inteqrasiya olmanı tələb edir. Artıq regionalizm konsepsiyası iqtisadi qloballaşmanın regional inteqrasiyası elementi kimi çıxış edir. Ticarət-iqtisadi yönümlü bloklarda təmsil edilən ölkələrin iştirakçıları dünya bazarında müasir situasiyanın mürəkkəbliyi və ziddiyətləri ilə qarşılaşarkən daim onların həll edilməsi üçün yollar axtarırlar.

***Nəticə***

Ümumilikdə götürdükdə isə XXI əsrin əvvəllərindən başlayaraq son on il ərzində Xəzər regionu ölkələri arasında Rusiya, Qazaxıstan və Azərbaycanın iqtisadi durumunda nəzərə çarpacaq dərəcədə irəliləyişlər olmuşdur ki, bunun da ilk növbədə neft və qazın ixracından əldə edilən sərbəst kapital yığımlarının hesabına baş verdiyini demək daha düzgün olardı [8, s.10].

Göründüyü kimi, regionda mövcud qarşılıqlı inteqrasiyanı genişləndirmək üçün ciddi imkanlar yox dərəcəsindədir və yaxud da əsasən ümumi mürəkkəb şərtlər daxilində inkişaf edir. Buna baxmayaraq dayanıqlı iqtisadi inkişaf üçün regional ticarət əsas şərtlərdən biri olaraq qalmaqdadır. Hətta xarici ticarət axınının əhəmiyyətsiz artımı belə iqtisadi dinamika üçün vacib amillərdən hesab edilir. Ona görə də inkişaf üçün əlverişsiz şəraitə baxmayaraq, Xəzəryanı ölkələr hətta kiçik həcmdə olsa belə ixracatı artırmaq üçün fəal mübarizə aparmalıdırlar.

Artan iqtisadi artım müqabilində isə region ölkələrindən əsasən Rusiya və Qazaxıstan kənardan işçi qüvvəsinin gəlməsinə daima ehtiyac hiss edir. Hal-hazırda Xəzəryanı məkanda qarşılıqlı iqtisadi munasibətlər əsasən ticarət əlaqələrində oxşarlıq təşkil edir. Bütün ölkələri oxşar iqtisadi xüsusiyyətlərə – artıq əmək ehtiyyatlarına, kapital çatışmazlığına (Rusiya, Qazaxıstan və Azərbaycan istisna olmaqla) və aşağı texnoloji istehsala (bəzi sahələrdə Rusiya istisnalıq təşkil edir) malikdir. Bununla da məntiqi cəhətdən güman etmək olar ki, ən azı onillik ərzində bu ölkələr arasında xammal və xidmətlərin idxal və ixracları əsas əməkdaşlıq forması olaraq qalacaqdır. Təəssüflər olsun ki, mövcud mürəkkəb geosiyasət və regional hərbi konfliktlər də iştirakçı ölkələrin qar-

şılıqlı münasibətlərinin bariz şəkildə effektiv aparılmasının qarşısına keçilməz sədd çəkmişdir ki, bu da öz növbəsində iqtisadi əməkdaşlığı daha da çətinləşdirmişdi.

Nəhayət, hesab edirik ki, Xəzər regionu ölkələrinin daxili inteqrasiyanı inkişaf etdirmələri, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin, o cümlədən neft-qaz kimi strateji yanacaq marşrutlarının seçilməsi və beləliklə də qura biləcəkləri əlaqələr bütövlükdə regionun inkişafına təkan verməklə yanaşı Xəzəryanı məkanda mövcud problemlərin həllinə də öz töhvəsini verə bilər.

**Ədəbiyyat siyahısı**


1. Айрапетова Н.Г. Союзное государство: полшага вперед, два назад. Москва по-прежнему не торопится интегрироваться с Минском. «Независимая газета», М.,2001, 26 января, №13 (2323).
2. Беловежские соглашения. Газ. «Известия», 1991, 11 декабря. № 294 (23560).
3. Жуков С.В., Резникова О.Б. Экономические взаимодействие на постсоветском пространстве // «Кавказ & глобализация», Том I. (1) 2006, с.109-113.
4. Фу Чжен Кун. Геополитика Казахстана: между прошлым и будущим. А.: «Жеты-Жаргы», 1999, 416 с.
5. Фу Шин – И. Правовое регулирование иностранных инвестиций в сфере малого и среднего бизнеса в Казахстане и за рубежом. А.: Центр сравнительного изучения регионов, 2001, 177 с.
6. Шишков Ю.В. Интеграсионные процессы на пороге XXI века. Почему не интегрируются страны СНГ. М.: НП «III тысячелетие» 2001, 480 с.
7. Central Asia Human Development Report. Bringing Down Barriers: Regional Cooperation for Human Development and Human Security. The Central Asian Economies since Independence, Bratislava: UNDP, 2005, p.195.
8. Kalinova B. A Decade of Trade Liberalization in Transition Economies, Working Party of the Trade CommitteeTrade Relations with Economies in Transition, CCNM/TD(2000)110/FINAL, 2000 , December, OECD, p.10.
9. Olcott M., Aslund A. Gamett Sh. Getting it Wrong Regional Cooperation and the Independent States. Washington, 1999, p. 159.
10. Runiewicz Malgorzata, Antonova Hanna. The Role of Commonwealth of Independent States (CIS) in the Economic Integration and PoliticalStability of the Region // TIGER Working Paper Series, 2006, Warsaw, February, №83.
11. Sachs J. Geography and Economic Transition. 21 november 1997 (mimeo).
12. http://www.mfa.gov.az /İkitərəfli iqtisadi münasibətlər/ Demokratiya və iqtisadi inkişaf naminə təşkilat-GUAM.
13. http://www.geopolitika.ru /articlec/ 195. Александр Дугин. Евразийский взгляд//Леонид Савин. Сетецентричные войны, от концепции к спецоперациям.